# COP29 Bakını növbəti dəfə dünyanın mərkəzinə çevirəcək

**Gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanda keçiriləcək. İqtisadi və siyasi cəhətdən mühüm əhəmiyyət kəsb edən bu tədbirə Bakının evsahibliyi etməsi tarixi hadisə olacaq. COP29-un ölkəmizdə keçirilməsinə nail olmağımız Prezident İlham Əliyevin 20 il ərzində həyata keçirdiyi islahatlar, hərbi-siyasi uğurlar və möhkəm təməllərə dayanan siyasi iradənin sayəsində mümkün olub.**



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ölkədə turizm sektorunun daha da gəlişməsindən tutmuş, rəqəmsal infrastrukturun təkmilləşdirilməsinədək çox sahələrə müsbət təsir göstərəcək.

Qərbdəki bəlli qrupların Azərbaycanı təcrid vəziyyətində saxlamaq və keçmiş "Artsax"ı gələcək Kosovaya çevirmək üçün məkrli planlar qurduqları bir vaxtda dövlət başçısının da vurğuladığı kimi, ölkələrin təmsilçiliyi baxımından BMT Baş Assambleyasından geri qalmayan belə möhtəşəm tədbirin Azərbaycanda keçirilməsi dünyanın beşdən böyük olduğunun, beynəlxalq birliyin sərhədlərinin isə 30-40 ölkə ilə məhdudlaşmadığının növbəti sübutudur. Ona görə növbəti olduğunu deyirəm ki, Azərbaycan böyük güclərin təhdidlərinə rəğmən BMT Təhlükəsizlik Şurasının qətnaməsini özü təkbaşına reallaşdırmaqla presedent yaradaraq bunu nümayiş etdirib.

Deputat xatırladıb ki, Ermənistanın bu məsələdə Azərbaycanı dəstəkləməsi təkcə ikitərəfli əlaqələrin normallaşmasına yol açmaq baxımından önəmli deyil. Azərbaycan bununla Ermənistana dəstək adı altında ölkəmizə qarşı düşmənçilik siyasəti yeridən Fransa kimi yırtıcıları da fakt qarşısında qoydu. Göstərdi ki, hazırda  geosiyasi qarşıdurma obyekti kimi baxılan bu region gələcəkdə subyekt kimi çıxış edə bilər.

Sahib Alıyev həmçinin COP29-un iştirakçı sayına və statusuna görə də əlamətdar konfranslardan olduğunu söyləyib. Deputat deyib ki, bu tədbirdə təxminən 70 min və daha çox insanın iştirak edəcəyi gözlənilir. Təkcə bu fakt da COP29-un beynəlxalq əhəmiyyətini sübuta yetirir. Konfransla bağlı keçirilən müşavirədə Prezident İlham Əliyev COP29-un dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olduğunu vurğulayıb.  Deputat yekunda qeyd edib ki, bu tədbir nüfuzu günbəgün artan Azərbaycanın növbəti qlobal uğuru olacaq.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*